## Azərbaycan Respublikasının "İcra haqqında" Qanunundan çıxarış

**Maddə 13. İcra sənədlərinin icraya yönəldilməsi müddətləri**

**13.1.** İcra sənədləri aşağıdakı müddətlərdə icraya yönəlməlidir:
**13.1.1.** bu Qanunun 13.1.3-2-ci, 13.1.4-1-ci və 13.1.5-ci maddələrində nəzərdə tutulan hallar istisna olmaqla, məhkəmələrin qərarları əsasında verilən icra vərəqələri və məhkəmə əmrləri - bir ay ərzində;
**13.1.2.** iddianın təmin edilməsi ilə bağlı tədbirlərin görülməsi haqqında məhkəmələrin qərardadları əsasında verilən icra vərəqələri - dərhal;
**13.1.3.** notariusun icra qeydləri – dərhal;
**13.1.3-1.** bu Qanunun 13.1.3-2-ci maddəsində nəzərdə tutulan hallar istisna olmaqla, inzibati xətalara dair işlərə baxmaq səlahiyyəti olan orqanların (vəzifəli şəxslərin) qərarları – on gün ərzində;
**13.1.3-2.** inzibati cərimə növündə inzibati tənbeh tətbiq etmə haqqında qərarlar – Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 150-ci maddəsində müəyyən edilmiş müddətlər ərzində.
**13.1.4.** xarici dövlətlərin məhkəmələrinin qərarları əsasında verilən icra vərəqələri - üç il ərzində;
**13.1.4-1.** şəxsin saxlanılması üçün vəsaitlərin, o cümlədən alimentlərin alınması haqqında məhkəmə qərarları əsasında verilən icra vərəqələri – dərhal;
**13.1.4-2.** bu Qanunun 13.1.4-3-cü maddəsində nəzərdə tutulmuş hal istisna olmaqla, xarici və yerli arbitraj məhkəmələrinin qərarları əsasında verilən icra vərəqələri – bir ay ərzində;
**13.1.4-3.** arbitraj məhkəmələrinin müvəqqəti təminat tədbirlərinin tətbiqi barədə qərarlarının tanınması və icrası barədə məhkəmə qərarları əsasında verilən icra vərəqələri – dərhal;
**13.1.5.** qısamüddətli mühafizə orderi və məişət zorakılığından zərər çəkmiş şəxsə uzunmüddətli mühafizə orderinin verilməsi haqqında məhkəmə qərarları əsasında verilən icra vərəqələri – dərhal.

**13.2.** Bu Qanunun 13.1-ci maddəsi ilə müəyyən olunmuş müddətlər aşağıdakı qaydada hesablanır:
**13.2.1.** Bu Qanunun 13.1.1-ci, 13.1.4-cü və 13.1.4-2-ci maddələrində göstərilmiş icra sənədlərinin (məhkəmə əmrləri istisna olmaqla) icraya yönəldilməsi zamanı – məhkəmə qərarının qanuni qüvvəyə mindiyi yaxud onun icrasının təxirə salınması və ya icrasına möhlət verilməsi ilə bağlı müəyyən edilmiş müddətin başa çatdığı vaxtdan, məhkəmə qərarı dərhal icra edilməli olduqda – onun qəbul edildiyi günün ertəsi günündən;
**13.2.2.** məhkəmə əmrlərinin icraya yönəldilməsi zamanı – onların verildiyi vaxtdan 10 gün müddət keçdikdən sonra;
**13.2.3.** bu Qanunun 13.1.3-cü maddəsində göstərilmiş icra sənədlərinin icraya yönəldilməsi zamanı – müvafiq qərarın qəbul edildiyi vaxtdan.